

**Əl işdən soyumaz, ürək arzudan...**

# QƏBƏLƏ

**ictimai-siyasi qəzet**

№ 43-44 (7564-7565) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə axşamı, 26 sentyabr 2019-cu il. news@qebele-ih.gov.az


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***24 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosun, Litvanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Egidiyus Navikasın, Xorvatiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiçin etimadnamələrini qəbul edib.

***20 sentyabr***

Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə nitq söyləib.

***19 sentyabr***

Ölkə Prezidenti İlham Əliyev Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***18 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

***17 sentyabr***

Dövlətimizin başçısı İlham Əliyev Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanı qəbul edib.

***16 sentyabr***

Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri açılış mərasiminə baxıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Ölkə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Binəqədi rayonundakı 300 nömrəli tam orta məktəbin 960 şagird yerlik yeni tədris kompleksinin açılışında iştirak ediblər.

## İlham ƏLİYEV: *Sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir.*

# Sosial layihələrin icrası milli inkişafımızın əsasıdır



***Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət öz müsbət nəticələrini verir. Prezident İlham Əliyevin təsdiq etdiyi regional inkişaf proqramları, imzaladığı fərman və sərəncamlar, bundan irəli gələrək atılan addımlar ölkəmizin simasını tanınmaz dərəcədə dəyişib. Ölkəmizin şəhərləri və rayonları arasında olan fərq aradan qalxıb. Paytaxt Bakı ilə yanaşı, regionlarda da yeni-yeni istehsal müəssisələri, müxtəlif sosial obyektlər tikilərək istifadəyə verilib, əhalinin məşğulluğu təmin edilib.***

Xüsusilə qeyri-neft sektorunda inkişaf tempinin davamlı hal alması ölkə iqtisadiyyatının neftdən asılılığını azaldıb. İqtisadi inkişaf tempinə görə regionun lider dövləti olan Azərbaycan eyni zamanda beynəlxalq aləmin layiqli üzvünə, etibarlı tərəfdaşına çevrilib.

Təsadüfi deyil ki, bu gün Azərbaycan qlobal layihələrin reallaşdırıldığı ölkə kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən islahatların həyata keçirilməsi də ölkəmizin beynəlxalq imicinə müsbət təsir göstərir. Dövlət başçısının rəhbərliyi ilə atılan addımlar, xüsusən də sosial sahəni əhatə edən müxtəlif tədbirlər Azərbaycanın islahatçı ölkə olduğunu növbəti dəfə nümayiş etdirib.

Hazırda iqtisadiyyatın daha da inkişaf etdirilməsi üçün ölkədə olduqca münbit şərait formalaşıb və bu, Azərbaycanda indiyə qədər həyata keçirilən iqtisadi siyasət sayəsində mümkün olub.

Bütün sahələr üzrə çox ciddi nəticələr əldə olunub. İlin əvvəlindən başlayaraq əhalinin büdcədən maliyyələşən bütün kateqoriyalarının əmək haqları, pensiyaları, təqaüdləri, müavinətləri artıb.

Sosial xarakterli bir neçə irimiqyaslı layihələrin həyata keçirilməsi, eləcə də sahibkarlığın inkişafı ilə bağlı dövlət başçısı tərəfindən vaxtaşırı verilən sərəncamların hamısı iqtisadi inkişafa, sosial vəziyyətin yaxşılaşmasına, insanların daha güvənli yaşamasına səbəb olub.

Azərbaycan bu inkişafı daxili resursları və özünün imkanları hesabına əldə edib. Bunu həm ənənəvi iqtisadiyyatda, həm də ölkəmiz üçün yeni olan sahələrdə görmək mümkündür.

Ölkədə vaxtaşırı keçirilən beynəlxalq tədbirlər respublikamızın həm siyasi nüfuzunu artırır, həm də iqtisadiyyatımızın cəlbediciliyini yüksəldir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu hər sahədə uğurla davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasətinin başlıca məqsədi Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasında görmək, beynəlxalq aləmdə nüfuz və söz sahibinə çevirməkdir.

Azərbaycan xalqı əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasi kursun davamına birmənalı dəstəyini göstərməkdədir. Dövlətimizin başçısının yürütdüyü uğurlu daxili və xarici siyasət bir-birini tamamlayaraq Azərbaycanın milli maraqlarının maksimum dərəcədə təmin olunmasına yönəlib. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub.

Ölkə başçısının böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sahədə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli islahatlar aparılmışdır.

Ölkə rəhbərinin həyata keçirdiyi iqtisadi siyasətin mahiyyətindən irəli gələrək siyasi baxışlarından asılı olmayaraq hər kəsin birmənalı olaraq qəbul etdiyi reallıq ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi problemlərin həlli və bütün sahələrdə vüsət alan inkişafı ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının sayəsində mümkün olub.

Prezident İlham Əliyevin ölkədə həm də demokratikləşmə prosesinin ardıcıllığına, vətəndaş hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasına əsil lider kimi yanaşması Azərbaycanın yüksək beynəlxalq nüfuza malik ölkə kimi dünya dövlətləri sırasına çıxmasına və öz yerini möhkəmləndirməsinə səbəb olub.

Dövlət başçısının təsdiq etdiyi yeni sosial paket əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticə etibarilə ölkə vətəndaşlarının rifah halının yüksəldilməsi sahəsində ardıcıl irəliləyişlərin reallaşdırılmasına stimul verir.

**Varis YAQUBOV,**
**"Qəbələ"**